# Qırğızıstanda Nəsiminin 650 illiyi ilə bağlı poeziya gecəsi keçirilib



**Bu il türk dünyasının mədəniyyət paytaxtı olan Qırğızıstanın Oş şəhərindəki Qırğız-Qazax Universitetində böyük Azərbaycan şairi İmadəddin Nəsiminin 650 illiyi ilə bağlı türk dövlətləri şairlərinin poeziya gecəsi keçirilib.**

AZƏRTAC xəbər verir ki, poeziya gecəsində Qırğızıstanla bərabər Azərbaycan, Türkiyə, Qazaxıstan, Özbəkistan, Makedoniya, Saxa-Yakutiya, Başqırdıstandan gələn şairlər, mədəniyyət və incəsənət xadimləri iştirak edib.

Poeziya gecəsində ölkəmizi Akif Əhmədgil və Elçin İskəndərzadə təmsil edib.

Tədbiri TÜRKSOY-un Baş direktoru Düsen Kaseinov açaraq İmadəddin Nəsiminin həyatı və yaradıcılığından danışıb, böyük şairin həyatı haqqında film göstərilib.

Poeziya gecəsində iştirak edən şairlər İmadəddin Nəsiminin poeziyası, türk dünyası ədəbiyyatının inkişafındakı yeri və mövqeyi haqqında söhbət açıb, böyük şairin ölməz əsərlərini və öz şerlərini oxuyublar.

Poeziya gecəsində türk dünyasının 20-yə yaxın şairi iştirak edib.

Tədbir böyük konsert proqramı ilə başa çatıb.

Kaspi 2019.- 23 may.- S.13.